# CƏLİLABADDA “3 QƏBİR” ZİYARƏTGAHI

Nəzərova Zərifə, 80 yaş. 2016, 29-30 aprel – söyləyici: “Nənəmin yanında yatmışdım. Gecənin bir aləmi idi, gördüm ev işıqlandı. 1959-cu ildə bu qızın 12 yaşı olur. Ev işıqlananda baxdım gördüm başımın üstündə bir nurani şəxs əyləşib. 3 dəfə əli ilə mənə biləngimdən vurdu, dedi qızım qorxma. Gedək həyətdə bir şey var onu sənə göstərim. Atam arpa, buğda əkib bu sahəyə. Amma boş sahədi. Bu balaca kümələr var ki, həmin bu kümədə biz babamla-atamla qalırıq. Həmin nurani şəxs mənim biləngimdən yapışdı, gətirdi atam əkən buğdanın yanına. Barmağımdan dairəvi cız çəkdirdi, dedi: qızım, buranı qazdırarsan min bir dərdə dərman ocaqdı. İmam Rzanın balaları bura didərgin düşüblər. Qorxmuyasan sənin arxanda biz durmuşuq. Həmin xəttin başına da bir dəfə məni fırladı. Getdim evə ki, ay ata evə adam gəlib. Onda baxdım gördüm ki, heç kim yoxdu. Yatdım, sübh tezdən durdum, nənəm namaz qılandı. Nənəm namaza qalxanda görüm ya bu yuxudu, ya əyani şəkildədi. Gəldim baxdım gördüm barmağımla çəkdiyim xətt qalıb. Qaça-qaça getdim nənəmin tumanından yapışdım. Dedim, ay nənə, həyətdə bir şey var, gedək sənə onu göstərim. Gətirdim nənəmi ki, ay nənə, mənim başıma belə bir iş gəlib. Belə bir əhvalat gəlib. Gecənin bir aləmində yatmışdım bir nurani şəxs əlində hasa, belində qurşaq, başında əmma var. Buranı qazdırarsan burda min bir dərdə dərman ocaq var. Nənəm qayıtdı dedi ki, qızım sən nə danışırsan. 1959-cu ildi, Masallı-Lənkəran məscidlərini bağlayıb sklat (anbar) eləyirlər, mollaları Qazaxıstana sürgün edirlər. Gəl belə şeyləri danışma. Bir daş altda, bir daş üstdə. Ay nənə elə şey ola bilməz axı. Elə bildim yuxu görmüşəm. Ancaq gəldim gördüm ki, barmağımdan çəkdiyim sahədə xətt qalıb. Qızım atan, anan savxozdadı. Qonşu kəndə gediblər orda işləməyə. Atan, anan gəlsin bu əhvalatı onlara da danış. Günorta vaxtı atası-anası gəldi. Zərifə xanım 12 yaşında qız uşağı atasını, anasını və qoca nənəsini götürdü gəldi həmin sahəyə. Dedi ata mənə köməklik eləyin. Buranı qazın, kiməsə qazdırın. 3 dənə imam balaları çıxmasa vurun məni öldürün qanım sizə halaldı. Atası dedi qızım sən uşaqsan. Oynayırsan, fikrində qalıb. Belə şeyləri danışma. Sovet hökümətinin vaxtıdı. Bir daş altda-bir daş üstdə. Yığışdır bu məsələni. Sonra qonum-qonşu deyəcək ki, Əlixan kişinin qızı (Zərifə xanım) dəli olub. İndi mənə nə deyirlər desinlər, ancaq burda 3 dənə imam balaları var. Buna köməklik göstərin çıxardaq. Nəsə buna atası qulaq asmadı. Getdi həyətdən bir dənə lapatka yudu, təmizlədi, gətirdi buranı qazdı ağladı, qazdı ağladı. Qonum-qonşuya hay düşdü ki, Əlixan kişinin qızı dəli olub. Bir gün, iki gün, üç gün... Kişi savxoza gedəndə orda işçi yoldaşları soruşur ay Əlixan kişi Allah şəfa versin eşitdik qızın xəstələnib. Day demirlər dəli olub. Nəysə öz qulağına da çatır.

Atası xəcalətindən gəlib evdə uzanır. Bəhramxan adında bir qardaşı Qaz 51-52 maşın deyirlər onun şoferidi. Ay qardaş nə işdi, nə məsələdi. Bütün savxoz bizdən danışır. Hanı bəs bu qız. Deyir, qız sahəni qazır ağlayır. Gəldik, həmin Zərifə xanımı çağırdılar ki, qızım sənin atan xəcalətindən savxoza gedə bilmir. Sən nə iş görmüsən? Deyir, əmi mən atama da demişəm sizə də deyirəm mənə köməklik eləyin. Oranı qazın, kiməsə qazdırın. Ordan üç dənə imam balaları çıxmasa vurun məni öldürün, qanım sizə halaldı. Əstafrullah deyib, “atam Allahdan qorxmur, atam hökmətdən qorxur”. Deyir məni sürgün eliyərlər. Ona görə mənə köməklik göstərmir. Atası qayıdıb ay qızım mən 1941-ci ildə müharibədə olmuşam, min dənə, iki min dənə əsgər içində. Sağ salamat qurtarmışam, gəlmişəm, ailə qurmuşam. Sən əmələ gəlibsən. Sən mənə deyirsən Allahdan qorxmuram. Kəs səsini köpək qızı. And ola bizi yaradan Allaha köpək qızı kəlməsi kişinin ağzında qaldı. Kişinin ağzı əyildi, gəldi durdu burda. Burda bir ağlaşma, qırğın, qiyamət. Kişinin üstünə bir adyal atdılar. Həmin kişinin qardaşı getdi savxoza maşını təhvil versin gəlsin. Orda savxoz işçiləri soruşdu nə oldu, necə oldu Əlixan kişinin qızı. Nə qız? Qardaşım ya axşam ölə, ya səhər ölə. Bəs nəyə görə, nətər? Dedi, qız belə dedi, atası belə dedi. Axırda kişinin ağzı əyildi. Dedilər qardaş bunda bir hikmət var. Ona görə atasının ağzı əyilib. Bizdə 9 metrədən su çıxır. Qazanda ya suya çıxar, ya da dediyində bir həqiqət var.

***(Davamı 15-ci səhifədə)***

# CƏLİLABADDA "3 QƏBİR" ZİYARƏTGAHI

*(Əvvəli 5-ci səhifədə)*

Bunların gələn günü bizim kənddə Xanoğlan adında bir kişi var. Bu dəqiqə də yaşıyır. Görürlər kəndin içində car çəkir: Ay camaat, o qızın dediyi həqiqətdir. Qurban olduqlarımız mənim yuxuma girmişdi. Gəlin gedək oranı qazaq. Yuxu camaatda bir az da maraq yaradar. Gələrlər, görərlər təndir ağzı boyda yer, 12 yaşında qız qaza bilməz axı heç yarım metrə olar ya olmaz. Nə isə "poliçka" deyirlər, bizdə ağsaqqallardan eşitmişik. Qıraqlara taxtalar vururlar, ip çəkirlər, lapatka gətirirlər, növbə ilə buranı bir-bir qazır, on nəfər tökülüşüb qazırlar, on nəfər torpağını atır. Bir gün, iki gün, üç gün... Kişi deyir adyal çiynimdə Allah, qorxuram, çıxar birdən mən dövlətə nə cavab verərəm? Çıxmaz mən bu el içində biabır olaram. Adım bədnam olar. 2 metrə 40 sm qazılıb. Bu qız camaatı aralaya-aralaya gəlib durur baş tərəfdə.

Dedi, ay camaat, Allah sizdən razı olsun, Allah sizə kömək olsun. Lapatkalarınızı atın çıxın çölə. Qulağımla eşidirəm, kişi deyir başınız xarab olub? Bu dəli olub. Göstərməkdirsə qoca nənəsi namaz qılandı ona göstərərdilər. 12 yaşında qız uşağı heç qibləsini bilmir. Buların hamısını eşidən qız qayıtdı dedi ki, mənə 5 dəqiqə vaxt verin. 5 dəqiqədən sonra deyərəm. 3 nəfər namaz əhli özündə şübhə bilməyən ağsaqqallardan ayaqqabılarını çıxarsınlar, düşsünlər pilləkəndən qazılan yerə; Alxan adında kişi və 2 nəfər kənd camaatından. Əlinizi günçıxandan günbatana işarə verin. Torpaq özü sivrilişib gedib baş tərəfdə dayanacaq. O dəqiqə torpaq bir təpkə zımrığında cənazələrə toxunacaq. Torpağa inavator deyirlər. Elə bil torpağı apardı baş tərəfində saxladı and ola Allahın varlığına. Ordan elə bir gözəl hey qalxdı, dünyanı gəzəsən elə bir yer yoxdu. Cənazələrin yarı hissəsi aşkara çıxdı. Əti-əndamı üstündə, vaxtsız-vacibətsiz elə bil ki, bu axşam gətirib torpağa dəfn ediblər. Orda bir xanım var, xanımın hörümçək toru kimi saçı topuğuna qədər elə hörmüşdü ki, bir dənə cəsədi görsənmirdi. Cavanların yarı hissəsi torpaqda yarı hissəsi aşkara çıxmışdı ki, camaat öz gözləri ilə görsün. Bu camaat bu cənazələri burda gördülər burda bir ağlaşma, bir qırğın, bir qiyamət... O, qıza dəli deyənlər əlindən-ayağından öpdülər ki, keç günahımızdan sənə dəli dedik. Dedi: - Allah keçsin günahımızdan. Bizim məqsədimiz o idi ki, bu cənazələr aşkara çıxarılsın.

Qız üç dənə balaca xalça o vaxtı gətirdi atdı bunların üstünə. Kişi biraz ürəkləndi. Həyətdə bir heyvan kəsdi, ovsanat elədi. Ağsaqqallar məsləhətləşir ki, neynəyək, necə edək? Bizim dinimiz adətimiz var. Bunu çıxardaq ağa-vacibətə bükəyin. Qız deyir, ağlınız olsun, bura ziyarətgahdı nə danışırsınız?

Bizim Cəlilabad rayonunun Hasıllı kəndi var. Mir Məmməd ağa deyilən ağa var. Ağa da ki, kənddə rəhmətə gedən olanda o dəfn etməyə gəlir. Bizim rayonumuzun ağsaqqalıdı. Gedək ağaya deyək. Həmin o üç nəfər ağsaqqal, qız, bir də qoca nənəsi minərlər əmisinin Qaz-52 maşınına, gedərlər Hasıllı kəndinə.

- Ağa evdədi? Deyərlər yox, qonşuda bir xəstə var ordadı. Hamısı 6-7 nəfər gedər ağa başına dönüm Dələlidən (Cəlilabadda kənd) gəlmişik. Başımıza bir əhvalat gəlib. And ola Allaha bu əhvalatı danışdıq, qurtardıq. Ağa əl atıb cibindən yaylığı çıxartdı və doyunca ağladı. Ağlayandan sonra 12 yaşında qız uşağını çağırıb: "Niyə gətirib məni günaha batırırsınız", - dedi. Alnından öpüb dedi ki, qızım, ananın südü sənə halal olsun. Səni aparan şəxslər mənim də yuxuma girirlər. Amma elə bir dövrdə yaşayırıq ki, mən öz seyidliyimi boyun tuta bilmirəm.

- Ağa, başına dönüm bəs nə edək, necə edək?

Kənd camaatı dedi ki, ağlınız olsun, o şəxslər deyəcəklər nə etmək lazım olduğunu. Onlar sizin gözünüzün qabağında ölüblər. Olara ağ-vacibət lazım deyil. Qız maşına minib gələndə deyər mənə 7 gün icazə verin. 7 gündən sonra deyərəm. O vaxt texnika bir az zəif imiş. At arabasına kəl arabası deyirlərmiş onunla ziyarətə gəlirlər. 7 gün boyunca gəlirlər o kilimi qaldırıb imam balalarını ayaqdan başa-başdan ayağa ziyarət edirlər çıxırlar. 7 gündən sonra atasına deyər ki, ata qırmızı kərpic gətirin. Axrıncı torpağı verəndə qırmızı kərpici onun üstündən necə qəbir düzəldirsinizsə o qaydada düzəldin. Atası köməklik eləyər elə əmisinin maşını ilə bir dənə də usta gətirirlər. Bu qəbirlərin üstünü düzəldirlər. Düzəldəndən sonra atası deyərdi:
- Ay qızım, bunu deyərdin birinci gündən düzəldərdik. Hamımız təmiz-natəmiz gəlib xalçanı qaldırdıq o imam balalarını ayağdan-başa ziyarət elədik.

- Ata, mən özbaşına deyiləm yatdım qurban olduqlarımız yuxuma girdi.

- Qızım, imam övladlarına ağ-vacibət lazım deyil. Onlar sizin gözünüzün qabağında ölüblər. Ona görə 7 gün onun üstü açıq qaldı. Ona inanmayan qüvvələr çox olacaqdı. Deyəcəklər, görəsən onun üçü də üst-üstə idi, görəsən, qıçları yuxarı başları aşağı idi? Görəsən, sümükləri qalmışdı? 7 gün ərzində 70 nəfər, 700 nəfər öz gözləriylə şahidlik versinlər ki, o imam balaları necə dəfn olunub o torpağa.

Təzə düzəldib qurtarmışdıq bizim qonşu kənddən üç nəfər teleqram vurarlar Moskvaya. Cəlilabadın adı Astarxanbazar rayonu imiş. Astarxanbazar rayonunun Dələli kəndidi bu. Dələli kəndində bir ziyarətgah peyda eləyiblər özlərindən. Məqsədləri odur sərhədi yarıb İrana keçsinlər. Moskva-Bakı, Bakıda belə bir işçilər varmış indiki dildə desək, KQB, İcra hakimiyyəti qarışar məsələyə. Qızı çağırarlar deyərlər səhərisi günü saat 9 tamamda olsun bizim qəbulumuzda. Axşamüstü gələrlər, deyərlər qız uşağı qanmır bir dənə qara kələğayı götürər atar başına qoca nənəsinin yanından "Villis" maşını deyilən maşına minərlər ora gedərlər. "Getdim gördüm bir otaqda 6-7 nəfərdi. Bir dənə qız mənəm. Dedilər sən nə iş görmüsən bu bapbalaca boyunla. Elə bunu dedilər, məndə keçdim əyləşdim. Başıma gələn əhvalatı bunlara danışdım. Bulara danışandan sonra KQB işçisi deyib ki: - Qızım, sən gözəl qızsan, gəl, bizə izahat ver bunun biri əmimoğludu, biri dayımoğludu, biri bibimin qızıdı. Yoldaş hökumət mən o izahatı sizə verə bilmərəm. Dedi qızım niyə? Deyir atam evdədi, babam 1-2 ildi rəhmətə gedib. Qəbiristanlıq bizə yaxındı. Gedin onun qəbrini açın artıq sümükləri də torpağa qarışıb. Mən imam övladlarını öz qohum-əqrabama oxşada bilmərəm. Qızım, sən kimə arxayınsan belə danışırsan? Dedim o Allah ki, sizə vəzifəni verib həmin Allah da burda imam balalarını aşkara çıxardıb. Deyir qızım, öz qonşu kəndinizdən teleqrama vurublar biz özbaşına səni çağırmamışıq. Məsələ Moskvaya gedib çıxıb. Ya o cənazələri çıxardıb sərhəddən 5 km aralıqda basdıracayıq, ya da biz gəlib oranı dolduracayıq. Dedim ixtiyar sahibi sizsiniz. Ərazi nümayəndəsinə tapşırın sabah saat 9 tamamda gəlib oranı doldursun. Bura yığışan camaat görüb ki, özləri öz əliylə qazıblar. Sübh tezdən namaz vaxtı iynə atasan yerə düşməz millətdən".

Görərlər 5 dənə "Villis", atriatın komandiri, KQB, İcra hakimi gələrlər iclas eləyərlər: Ay camaat, düzdü dinimiz ayrı da olsa amma Allahımız birdi. Gəlin belə eləyək; cənazələri çıxardaq burdan, aparaq qəbiristanlıqda basdıraq, ya da qıraq kəndə - 5-6 km uzaqlıqda basdıraq. Ağsaqqallardan biri deyir ki, qardaş, sən nə danışırsan? Dünənə kimi bu qıza dəli deyirik. Dedik başına hava gəlib. Öz gözümüzlə görmüşük, öz əlimizlə qazıb aşkara çıxarmışıq. Bu hissədə 50 nəfər əsgərin var, bizi güllələsələr də qoymarıq bu cənazələr burdan çıxsın. Razılaşmazlar, atriadın kamandiri, KQB qızın əmisiylə düşərlər o pilləkəndən aşağıya. O vaxt sement olmadığı üçün qırmızı kərpici palçığa yaxıb qoyurmuşlar üst-üstə. And ola Allahın varlığına burdakı qəbirlər var bir bacıdı, iki qardaş. Ona sapoqla bir təpik vurdu ki, kərpicin altında görüm nə var nə yox. Ordan 3-4 dənə kərpic qopdu. Hay-haray, ilan üstündə ağ xallar necə çıxdı başını yellədən kimi. Bir-birilərinə rus dilində nə dedilər nə dəmədilər o pilləkəni qaça-qaça çıxdılar. Kamanda elədilər ki, buldozer qabağında bıçağı olan adam gətirsinlər bunun üstünü doldurmağa. And ola Allahın varlığına bir dənə traktor gətirdilər. Bu qəbirlərin üstünə çınqıl tökmüşdülər ki, İran tərəfdən bir külək qalxdı, bir tufan qalxdı bunların başındakı papağı götürüb sərhədə



tərəf tulladı. Yarım saat ərzində yığışan camaat dağılışdı. Elə bil bu həyətdə heç adam yox imiş. Uvaznan gələn qaçdı getdi. 2 saatdan sonra nə külək nə qiyamət. Budur burda gördük bir traktor dayanıb. Bundan başqa burda heç nə yoxdu. Bir az keçdi, 1-2 saatdan sonra traktoru bukser elədilər, apardılar. Həmin o bir müddət keçəndən sonra tozu-torpağını təmizlədilər. Gördülər həmin o qonşu kənddən 3 nəfər teleqrama vurmuşdu. Onun yoldaşı qucağındakı uşağı ağlaya-ağlaya gəlib yıxdı qəbirlərin üstünə. Bunun atası gorbagor olsun, axı mənim günahım nədi bu əzabı mənə verdi. Uşağın da bədəni olar ət. Onun da dərdini gətirər yıxar bu qəbirlərin üstünə. Üçü də axırda öz cəzasını çəkərlər. Bir müddət sonra camaat qorxa-qorxa gələr ziyarət edərlər.

Bir dəfə gördüm ki, "QAZ 52" markalı maşının içindəki soruşdu ki, pir burdadı? Dedim "hə". Dedi biz Bakının Binə qəsəbəsindən gəlmişik. Mənim adım Solmazdı, yoldaşımın adı Hilaldı. İndi mən Bakının Binə qəsəbəsində yaşayıram. Hilalnan ailə qurmuşam. Mən gecənin bir aləmində yatdım yuxu görürəm dağlıq dərəli yoldu. Bir tərəfində qranis. Dedilər yuxuda yoldaşın aparatını götürəcək, 3 dənə imam balalarının üstünü. Yoldaşın Hilal düzəldəcək. Gördüm bizim Hilal da çardağı düzəldir. Elə süfrəni açan kimi: Ay Hilal, başıma gələn əhvalat budur. Hilal baxır gözümün içinə. Ay evin yıxılmasın, qoy naharımı edim, sonra sənə bu əhvalatı danışacam. Eyni yuxunu həmin gün Hilal görər. Həmin Solmaz xanım QAZ 51-52 maşın taparlar, soraqlaşa-soraqlaşa svarka aparatını, armatur, iqolnik yığar, maşına qoyaraq gələr ziyarətgahın üstünü şifer, yanlarını xrustal şüşə ilə düzəltdirər.

Bir müddət keçmişdi 2000-ci ilə kimi həmin tikiliş davam edirdi.

Bizim qonşu rayon var, Masallının Şatıroba kəndi. Orda Camal adında bir oğlan Yakutada yaşayırdı. Günlərin bir günü yuxu görər bu oğlan. Yuxuda buna deyilər ki, "bir tərəfi qranisdi, 3 dənə qəbirdi. Tozludumanlı yolnan gəlirəm deyirlər, Camal öz zəhmət haqqından bu 3 dənə imam balalarının üstünü sən günbəz tikdirəcəksən". Durdum gördüm namaza az qalır, getdim məscidə qardaşlarıma, yaxınlarıma bu əhvalatı danışdım. Qardaşlarım məni lağa qoydular, "nə olsun yuxudu", dedilər. Gəldim nahar elədim, işlərimi yekunlaşdırdım, gecəni yatdım. Dedi, and ola bizi yaradan Allaha gördüm göydən başıma ildırım tökülür. Çığırıram aman Allah özün rəhim elə. Gördüm qara paltar arvad deyir sənə demədik ki, 3 dənə imam balalarını öz zəhmət haqqından üstünü günbəz tikdirəcəksən. Onda ayıldım gördüm yoldaşımın əlində dəsmal tərimi silir. Camal nə olub, nə işdi, nə məsələdi? Dedim hal-qəza belə. Mənim qardaşlarıma deyərsən Camal getdi, Azərbaycana.

Xala, bibi mənim gəlişimi gözləyirlər, Camal gəlir. Gəldim gördüm həyətdə yer yoxdu. Başıma gələn əhvalatı danışdım. Bu əhvalatı danışandan sonra elə anam ağzımdan qoymadı, dedi ay bala 3 meyit deyirlər ora İrandan qranitsadı. Mən qranisdə görmüşəm 3 dənə də qəbir. Məni pilləkəndən salırlar ki, Camal bunun üstünü günbəz tikdirəcəksən. Çıxdım küçənin başına qazel, raflar var idi. Həmin qazel şoferi buranı tanıyırdı gəldim ki, ay qardaş bizi belə bir ziyarətgaha apar üç dənə qəbir olan bir ziyarətgahdı. Dedi ora İranla qranitsadı, yolları da çox narahatdı. Sabah səhər 8-də, 9-da gedərik. Səhərisi gün bütün qohum-əqrabalarını yığar, Camal gələr, pir hardadı ziyarətgahı soraqlaşa-soraqlaşa taparlar. Mən Yakutadan gəldim Azərbaycana. Yakutayla Azərbaycan arasında 7 saat fərq var. Mən gəldiyim bu yolları Yakutada yuxuda görmüşəm. Amma mən Dələli kəndinin adını heç eşitməmişəm. Ağzı əyilən kişiyə dedi: ağsaqqal biləsən mən demirəm başımdan var-dövlət aşıb tökülür amma Allah bunu mənə məsləhət bilibsə bunu mənim gücüm çatacağı qədər köməklik göstərəcəm. Ağsaqqal dedi ay oğul o qədər oğlanlar söz verib tikdirsən də sağol, tikdirməsən də. Çıxartdı 300 dollar qoydu qənd qabının altına. Bunu götürün, gedin usta gətirin. Biləsiniz ki, buranı düzəltdirəcəm.

Həmin bu ziyarətgahın tikilişi 2000-ci ildə başa gəldi.

Həmin 12 yaşında Zərifə xanım öz xalası oğlu ilə ailə qurdu. Bu evlilikdən 9 (3 oğlan, 6 qız) övlad dünyaya gəldi. 2004-cü ildə həmin ağzı əyilən kişi 85 yaşında vəfat etdi. O vaxta qədər də ziyarətə gəlibgedənə başına gələn əhvalatı danışırdı. 2009-cu ildə də Zərifə xanımın yoldaşı dünyasını dəyişib.

Həmin ziyarətgahda quyu: Hər ziyarətgahda bir quyu var. Məkkədə Zəm-Zəm suyu, Məşəddə, Kərbəlada, Əshabu-kəfdə var. Burda da Allah təala məsləhət bilib. Kimin ürəyindən nə keçir, dərdi, qəmini bu quyuya deyər.

Həmin ziyarətgahda beşik: Əgər kimin uşağı yoxdursa, Allahdan kömək istəyib həmin beşiyə nəzir edərlər. Əksər insanların nəziri qəbul olar.

**Toplayıb tərtib edəni:**



***Nigar İMAMƏLİYEVA,***
***AMEA Folklor İnstitutunun əməkdaşı***